# 20 Yanvar... 32 il keçdi



***Qardaşım İNTİQAM, SALAM!***

***Bu ağrılı yazını – ağını 20 YANVAR şəhidlərimizin dəfn olunduğu gündə qəzəbli-qeyzli matəm axınına qoşulduğum zaman birnəfəsə yazmışdım...***

***O zaman üzə çıxarmaq istədim, alınmadı, yaxın buraxmadılar...***

***Bu günlərdə taxçaya qaladığım yazılarımın içində könülsüz-könülsüz, kahal-kahal qurdalandım. Bu yazım məni bir daha o müsibətli günlərə apardı. İstədim yazıya yenidən əl gəzdirim. Amma elə bil kimsə əlimdən tutdu, qoymadı...***

***Sənə göndərirəm. Könlümdən keçdi ki...***

***Hörmətlə,***

***Şəhidlərin şahidi***
***AĞASƏFA***

---

## QANI YERDƏ QALANLAR

“Biz qardaşıq!” söyləyən,
Deyən insanlar hanı?
Qanımızı tökürlər
Sevdiyimiz torpağa.
Qan-qeysan meydanıdır,
Qan-leysan meydanıdır
Yurdun neçə meydanı,
Oğulların sinəsi
Dönüb qanlı bayrağa.

Dolu kimi səpilir
Üstümüzə güllələr,
İmreşöhrəti
Tank imiş, atəş imiş.
Bizi qırmaq üçünmüş
Bu qanunlar – hiylələr,
Mənim əllərim yalın,
Onun meydanı geniş...

Anam, bacım, ağlama!
Sil gözünün yaşını...
Qanlı göz yaşlarımız
Qanları yuya bilməz.
Qan aparır torpağın,
Yurdun hər qarışını,
Bu qanlı faciəni
Daş qəlblər duya bilməz.

Göz yaşıyla sağalmaz
Qəlbimizin yarası,
Özümüzdən o yana
Eşidilmir hayımız.
Yeriyir üstümüzə
Bu Allahın bəlası,
Tanklardır, güllələrdir
Sülh, azadlıq payımız.

Düşmən birmi, ikimi?
Dövrələyib hər yanı...
Hansını çox yandırır
Közüm, odum, bilmirəm.
Yağır odlu güllələr,
Axır köksümün qanı,
Ovcumdakı bu daşı
Kimə atım, bilmirəm.

Belə qırğın olmayıb,
Belə tufan olmayıb,
Haqq hardadır, soruşma,
Haqqın ünvanı yoxdur.



Haqq tapdanan ölkədə
Haqqı tapan olmayıb,
Rusun divanı “haqdır”,
Haqqın divanı yoxdur.

Bakının küçələri,
Meydanları qızıl qan,
Qızıl qan içindədir
Qızıl üfüq, qızıl dan...

Tanklar – lüləsi alov,
Qızıl gülləsi – alov,
İgidlərin sinəsi
Topa davam gətirməz.
Kimin imzasıyladır
Bu vay, bu həşir, bu lov,
Kimin hiyləsiylədir
Bu tufan, bu divan bəs?

Kimindir bu qanlı əl?
Kiminkidir bu fərman?
Bakının meydanları
Qızıl qandır... qızıl qan...

Qızıl ulduzları da
Biçdi qızıl güllələr,
Güllə leysanı düşdü
Bu gecənin baxtına.
Zəhərini, ödünü
Tökdü qanlı lülələr
Azərbaycan xalqının
Məhəbbət paytaxtına.

Bu gecənin köksünü
Zirehlərlə yardılar,
Bu gecənin bağrını
Qanlı əllər qanatdı.
Heç bu qızıl yanaqlı
Uşağa qıyardılar?
Uşağın da üstünə
Qanlı əllər qan atdı...

Körpələr oyandılar
Səksəkəli, yuxulu,
Laylalar qana batdı,
Ağılar qana batdı.
Tanklara sinə gərən
ər oğullar yıxılı...
Bu yıxılan çinar da
Bir qırılan qanaddı...

Kürsülərdən haqq deyən
Haqqı atəşə tutdu,
Qanlı pəncəsi ilə
Yeridi üstümüzə.
Gecə-gündüz daşınan
Varımızı unutdu,
Neftimizlə yeriyən
Tanklar göndərdi bizə.

Eşitməz karqulaqlar
Anaların ahını,
Balaların qanını
Axıdanlar gözü kor!
İndi də boynumuza
Qoyur öz günahını
o qaniçən, o vəhşi,
o bədəməl, o nankor!

Yalan doğru donunda,
Doğrunun köksü qanlı,
İçimi dərd yandırır,
Tüstüm təpəmdən çıxır.
Arvadının aşnası
Erməni – yerevanlı,
Aşnasının əliylə
Alnıma güllə sıxır.

Ölkə-ölkə gəzdirir
Yanında qancığını,
Yüyəni gecə-gündüz
Qancığın əlindədir.

Arvadağız kişinin
Siçan yeyib bığını,
Arvadın eşşəyidir,
Palanı belindədir.

Haqqı basıb boğdular,
Allah da şahid oldu,
Çaldı bizi qəfildən
Zəhər dilli ilanlar.
Xalqımın övladları
Yıxıldı, şəhid oldu,
Xalqımın övladları...
Qanı yerdə qalanlar...

Qaldırın tabutları!
Çiyniniz əyilməsin!
Qaldırın tabutları!
Allah görsün bu dərdi...
Dünya bu gəmilərin
Fəryadını dinləsin,
Bu xalqın haqq bağıran
Səsi bu gəmilərdi!

Qaldırın tabutları
Üfüqlərin fövqünə,
Qaldırın tabutları!
Günəşlə tən görünsün...
Qaldırın tabutları!
Qaldırın Aya, Günə...
Bayrağı tabut olan
Dərdli Vətən görünsün...

Ağla, bacım, qardaşım,
Ağla, anam, ağı de,
Ağla, hıçqır, içində
Saxlama göz yaşını.
Qanlımıza qanlı de,
Yağımıza yağı de,
Şəhidlər torpağına
Söykə bir az başını.

Qanınız yerdə qalan
Şəhidlərim, uyuyun,
Hərənizə bir qarış
Yer verib Ana torpaq.
Bu da bir qanlı kələk,
Bu da bir qanlı oyun,
Başımızı bilmirəm,
Hansı divara çırpaq.

İftiralar, yalanlar,
Böhtanlar dalğa-dalğa,
Ey yalançı mühərrir!
Sənin əlin qurusun!
Böhtanları nə qədər
Yağdırarlar bu xalqa!
Böhtanlarla işləyir
Dəyirmanı urusun,
Vallah, aydın görünür
Al quyruğu xoruzun.

Ey haqq gəzən, ey bəşər!
Bizdən əl çəkmir bu şər...
Əlində qanlı fərman,
Dilində başsağlığı...
İlan gözlü eynəyin
Birdən gözündən düşər,
Ey qaniçən əjdaha,
Cibinə qoy yaylığı!

Mənim oğlum da əsgər;
Uzaq eldə dənizçi!
Onun da əlindədir
Avtomatı, silahı.
O, xalqa güllə atsa,
Yanar qəlbimin içi,
Goruma aparmaram
Bağışlanmaz günahı!

Mənim oğlum da əsgər –
Şəhidlərin qardaşı,
Dili Bakı soraqlı,
Ürəyi məngənədə.
Dərdimizi eşidər,
Axar indi göz yaşı,
Bir vərəq məktubuna
Ümidliyəm yenə də.

Mənim oğlum da əsgər...
Ürəyim səksəkəli...
Əlim heç yerə çatmır,
Qələm kağıza yatmır.
Xalqına güllə ata
Övladları, öz əli,
Gözüm görür, yenə də,
Vallah, ağlıma batmır.

Mənim oğlum da əsgər...
Namərd əlində əsir...
Qələm tuta bilmirəm,
Əlim titrəyir, əsir...

Qələm tuta bilmirəm,
Yaram yaman göynəyir,
Köksümü dəlib keçir
Bu saatlar, bu anlar...
Hardadır şəhidlərin
Qızıl qanlı köynəyi?
Qanınız yerdə qalmaz!
Qanı yerdə qalanlar...

***Qanlı Yanvar, 1990***